Azərbaycan Respublikasının Auditorlar Palatasında 2024-cü il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri, "Auditorun səsi" mövzusunda onlayn müzakirələr və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə

H E S A B A T

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.2-ci "Auditin aktual problemləri üzrə konfransların, "dəyirmi masa"ların, ustad dərslərinin və seminarların təşkili" və 10.7-ci "Auditorun səsi" mövzusunda onlayn müzakirənin təşkili" bəndlərinin və Auditorlar Palatası sədrinin "Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə" 2022-ci il 12 yanvar tarixli 1/2 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə Palatanın icraçı direktoru S.Gülməmmədov tərəfindən 2024-cü ilin 07 yanvar tarixində təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının və üzvlərinin 2024-cü il üzrə ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə əlaqədar KİV-də fəaliyyətlərinin siyasi reytinqinə dair Tədbirlər Planına uyğun olaraq aşağıdakı tədbirlər keçirilmişdir:

I. İCTİMAİ - SİYASİ TƏDBİRLƏR

1. Auditorlar Palatasında 2024-ci ilin 18 yanvar tarixində "20 yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, F.Qarayev, Z.Almazov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2024-cü ilin 18 yanvar tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

2. Auditorlar Palatasında 2024-cü ilin 02 fevral tarixində "Gənclər Günü"nə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: F.Qarayev, Z.Almazov, N.İsmayılova) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2024-cü ilin 02 fevral tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

3. Auditorlar Palatasının kollektivi 2024-cü ilin 26 fevral tarixində “Xocalı soyqırımı - insanlığa qarşı cinayət” (məsul icraçılar: F.Qarayev, Z.Almazov) faciəsinin 32-ci ildönümü ilə əlaqədar “Ana harayı” abidəsini ziyarət ediblər.

4. ”8 Mart- Beynəlxalq Qadınlar Günü”nə həsr olunmuş tədbirin keçirilməsi” bəndinin (məsul icraçılar: Q.Əhmədov, N.Abdullayeva) icrasını təmin etmək məqsədilə Palatanın sədri V.Novruzov 2024-cü ilin 06 mart tarixində Auditorlar Palatasının üzvü olan xanım auditorlara 8 mart- Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik məktubu göndərmiş və Palatanın xanım əməkdaşları mükafatlandırılmışdır.

5. “20-21 Mart Novruz Bayramı”na həsr olunmuş tədbirin keçirilməsi” bəndinin (məsul icraçılar: S.Gülməmmədov, Q.Əhmədov, Z.Almazov) icrasını təmin etmək məqsədilə Palatanın sədri V.Novruzov 2024-cü ilin 18 mart tarixində Auditorlar Palatasının üzvlərinə Novruz Bayramı münasibətilə təbrik məktubu göndərmiş və Palata əməkdaşları mükafatlandırılmışdır.

6. Palatanın sədri V.Novruzov 2024-cü ilin 08 aprel tarixində "Ramazan Bayramı" münasibətilə Auditorlar Palatasının üzvlərinə təbrik məktubu ünvanlamışdır.

7. Auditorlar Palatasında 2024-cü ilin 08 may tarixində Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, F.Qarayev, Z.Almazov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2024-cü ilin 08 may tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

8. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət adından yaradılan publik hüquqi şəxslərə, habelə digər aidiyyatı qurumlara ünvanladığı 2024-cü il 24 may tarixli 2-5/2-13460/2024 nömrəli müraciət məktubuna əsasən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə “İnsan Hüquqları Günü” kimi təsis olunması, 18 may-18 iyun tarixlərinin “İnsan Hüquqları Aylığı”nın elan edilməsi ilə əlaqədar, Auditorlar Palatasında 2024-ci ilin 11 iyun tarixində “18 İyun – İnsan Hüquqları Günü” münasibətilə onlayn tədbir keçirilmişdir.

Tədbirin nəticəsi barədə məlumat 2024-cü ilin 11 iyun tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

9. “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 30 illiyi ilə əlaqədar silsilə məqalələrin hazırlanması və KİV-də işıqlandırılması” bəndinin

(məsul icraçılar: Palatanın struktur bölmələrinin rəhbərləri və üzvləri) icrasını təmin etmək məqsədilə:

13.01.2024 – Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "AZƏRTAC"-da “Azərbaycanda auditor xidmətinin həcmi 40 dəfədən çox artıb” başlıqlı müsahibəsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

13.01.2024 – Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "AZƏRTAC"-da “Palata sədri: Son illər Azərbaycanda şəffaflığın artırılmasında mühüm nailiyyətlər əldə edilib” başlıqlı müsahibəsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir; Məlumat eyni zamanda Apa.az, en.trend.az saytlarında da paylaşılmışdır;

13.01.2024 – Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "AZƏRTAC"-da "Azərbaycanda artıq müasir dövrün çağırışlarına cavab verən audit sistemi formalaşmalıdır" başlıqlı məqaləsi dərc edilmişdir. Məqalə eyni zamanda Azadsəs.az, kepez.tv saytlarında dərc olunmuşdur;

13.01.2024 – Palatanın icraçı direktoru Səbuhi Gülməmmədovun "İqtisadi cinayətkarlığa qarşı mübarizədə auditin imkanlarından istifadə zəruridir"başlıqılı məqaləsi report.az saytında dərc olunub;

23.01.2024 - Auditorlar Palatasının Aparat rəhbəri Qəşəm Bayramovun “RƏQABƏT – DAYANIQLI İNKİŞAFIN MÜHÜM AMİLİ KİMİ” mövzusunda məqaləsi "Respublika" qəzetində dərc olunmuşdur. 25.01.2024 tarixində isə həmin məqalə "AZƏRTAC"-da dərc olunmuşdur;

Yanvar-fevral, 2024 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun “Yeni çağırışlar audit qarşısında yeni vəzifələr qoyur” başlıqlı məqaləsi “Milli Məclis” analitik informasiya jurnalının 2024-cü il yanvar-fevral buraxılışında dərc olunub;

22.02.2024 – Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və dövlət orqanlari ilə iş idarəsinin rəisi Elnur İbrahimovun “İqtisadiyyat” qəzetində “Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsi” başlıqlı məqaləsi dərc edilmiş və həmin məqalə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

29.02.2024 –Auditorlar Palatasının icraçı direktoru, Auditorlar Palatası HİK-nin sədri Səbuhi Gülməmmədovun "İqtisadiyyat" qəzetində “Dayanıqlı inkişaf. Hesabatlılıq.Şəffaflıq” başlıqlı məqaləsi dərc edilmiş və həmin məqalə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

Mart, 2024 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun YAP.ORG.AZ saytında Yaşıl iqtisadiyyat və sosial –

ekoloji hesabatlılıq başlıqlı məqaləsi dərc etdirilmişdir. Eyni zamanda həmin məqalə 29 mart tarixində "Respublika" qazetində dərc olunmuşdur;

29.03.2024 - İQTİSADİYYAT.COM saytında Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədovun “Sosial audit sahəsində qabaqcıl xarici təcrübə” başlıqlı məqaləsi dərc olunub;

06.05.2024 - Vahid Novruzovun VERGİLER.AZ saytında “Dayanıqlı iqtisadiyyat şəffaf və ciddi hesabatlılığa söykənir” başlıqlı məqaləsi dərc olunub;

25-31 iyul, 2025 - Auditorlar Palatasının Aparat rəhbəri Qəşəm Bayramovun "İqtisadiyyat" qəzetində “Auditin səmərəliliyi, rolu və əhəmiyyətinə dair sosioloji sorğu” başlıqlı məqaləsi dərc edilmiş və həmin məqalə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

Avqust, 2024 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun YAP.ORG.AZ saytında “Sözlə əməlin vəhdəti” başlıqlı məqaləsi dərc etdirilmişdir.

10. Palatanın sədri V.Novruzov 2024-ci ilin 10 iyun tarixində "Qurban Bayramı" münasibətilə Auditorlar Palatasının üzvlərinə təbrik məktubu ünvanlamışdır.

11. Auditorlar Palatasında 2024-cü ilin 14 iyun tarixində Auditorlar Palatasının üzvlərinin və əməkdaşlarının iştirakı ilə “15 İyun - Milli Qurtuluş Günü”nə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, E.İbrahimov, Z.Almazov) keçirilmişdir

Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 14 iyun tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

12. Auditorlar Palatasının kollektivi 2024-cü ilin 27 sentyabr tarixində “Anım günü” münasibətilə Fəxri xiyabanı və Zəfər parkını ziyarət ediblər.

13. Auditorlar Palatasında 2024-cü ilin 11 dekabr tarixində 12 dekabr Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: S.Gülməmmədov, F.Qarayev, Z.Almazov) keçirilmişdir

Tədbirin nəticəsi barədə məlumat 2024-cü ilin 11 dekabr tarixində tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

14. İctimai-siyasi tədbirlərin qrafikinə uyğun olaraq 2024-cü ilin 26 dekabr tarixində “31 dekabr- Dünya Azərbaycanlılarının Həmrəylik Günü” və Yeni il bayramına həsr olunmuş tədbirin keçirilməsi” (məsul icraçılar: S.Gülməmmədov, F.Qarayev, B.Abbasov, V.Cavadov, N.İsmayılova, M.Hüseynova, N.Abdullayeva, Z.Almazov) nəzərdə tutulmuşdur.

II. KONFRANSLAR

2024-cü il 16 sentyabr tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun imzalanmasının 30 illiyi münasibətilə Auditorlar Palatası tərəfindən “Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq” mövzusunda təşkil olunmuş beynəlxalq elmi-praktik konfransda səsləndirilən fikirlər əsasında hazırlanacaq tövsiyələrin tətbiqi ölkələrimizdə dayanıqlı və yaşıl iqtisadiyyatın hesabatlılıq və şəffaflıqla bağlı bir sıra problemlərinin həllinə, bu istiqamətdə mühasiblərə və auditorlara vəzifələrinin daha ciddi yerinə yetirilməsinə öz müsbət töhfəsini vermiş olacaqdır

Konfransın keçirilməsində əsas məqsəd yaşıl iqtisadiyyat şəraitində hesabatlılıq anlayışına yeni yanaşma, maliyyə göstəriciləri ilə yanaşı, qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri özündə ehtiva edən hesabatlılıq və nəzarət sisteminin qurulması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə fikir mübadiləsi aparmaq və tövsiyələr işləyib hazırlamaqdan ibarət olmuşdur.

Konfrans öz işinə başlamazdan əvvəl tədbir iştirakçıları Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Konfransda Beynəlxalq Mühasiblər Federasiyası (IFAC), Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA), İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) kimi nüfuzlu beynəlxalq qurumları və 12 ölkəni (Azərbaycan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Özbəkistan, Pakistan, Rusiya, Türkiyə) təmsil edən 30 qurumdan 150-ə yaxın nümayəndə iştirak edib.

Beynəlxalq elmi-praktik konfransda Auditorlar Palatasının sədri, professor Vahid Novruzov konfransı açaraq qonaqları salamlayıb, konfransın əhəmiyyətindən bəhs edib və konfransın işinə uğurlar arzulayıb. Auditorlar Palatasının sədri, professor Vahid Novruzov tədbirin təşkilinə və göstərilən dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Prezident Administrasiyasına təşəkkürünü bildirib: "Azərbaycan Respublikasında həyata keçirilən siyasi-iqtisadi islahatlar mühüm amillərdən biridir. Şəffaflığın artırılması Heydər Əliyevin dövlət quruculuğu siyasətində əsas yer tutub. 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdan ulu öndərin imzaladığı qanunlar və fərmanlarla ölkəmizdə şəffaflığın hüquqi bazası qoyulub. Ulu öndərin şəffaflıq siyasəti bir tərəfdən nəzarət edən qurumların sayının azalması və səlahiyyətlərinin məhdudlaşdırılmasına, sahibkarlığın

genişləndirilməsinə, digər tərəfdən, müasir nəzarət institutlarına geniş yer verilməsinə, onların inkişafına nail olunmasına zəmin yaradıb. Nəzarət sisteminin təkmilləşdirilməsi və şəffaflığın yüksəldilməsi istiqamətində qanun 1994-cü il 16 sentyabr tarixində Heydər Əliyev tərəfindən imzalanıb".

O, bildirib ki, qarşıdan gələn COP29-un reallaşması istiqamətində qəbul edilən təkliflərin icrası ilə əlaqədar Azərbaycan auditorları bundan sonra da dövlətimizin yanında olacaq və hesabatlılığın, şəffaflığın təkmilləşdirilməsi sahəsində yeni dövrün çağırışları nəzərə alınmaqla öz vəzifələrini uğurla həyata keçirəcək. Diqqətə çatdırılıb ki, ölkəmizdə beynəlxalq standartlara uyğun auditin, o cümlədən dövlət auditinin zəruri hüquqi bazası yaradılıb. Hazırda auditin artan əhəmiyyətinin dünyada müxtəlif platformalarda qeyd olunduğunu vurğulayan natiq bildirib ki, bugünkü konfransın timsalında belə tədbirlərin keçirilməsi audit institutun rolunun daha da artırılmasında, bu sahədə davamlı islahatların keçirilməsində və bununla da, maliyyə sektorunda nizam-intizamın möhkəmlərdirilməsində önəmli rol oynaya bilər.

Professor Vahid Novruzov diqqətə çatdırıb ki, ümumbəşəri problem olan iqlim dəyişikliklərinin təsirlərinin azaldılması və bu təsirlərə uyğunlaşma üçün fəaliyyətlərə əhəmiyyətli dövlət resurslarının cəlb olunması, prosesə milli hökumət əsaslı yanaşmanın tələb olunması bu sahəni Ali Audit Orqanı obyektinə çevirir. Son 5 ildə dünyada iqlim fəaliyyətinin qiymətləndirilməsi üzrə 50-dən çox auditin aparıldığını vurğulayan natiq bildirib ki, ətraf mühitlə bağlı məsələlər uyğunluq və maliyyə auditləri ilə əhatə edilə bilsə də, iqlim dəyişikliyi ilə əlaqədar audit mövzularında səmərəlilik auditi ön plana çıxır.

Eyni zamanda tədbirdə Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) prezidenti Asma Resmouki, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Azərbaycan İqtisadçılar İttifaqının sədri akademik Ziyad Səmədzadə, Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) prezidenti Salvador Marin və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Farrux Rəhman, Rusiya Federasiyası “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə heyətinin sədri İqor Kozırev, Qazaxıstan Respublikasının Auditorlar Palatası Şurasının sədri Sapar Koşkimbayev, Latviya Sertifikatlı Auditorlar Assosiasiyasının İdarə heyətinin üzvü, Təhsil komitəsinin sədri Sandra Vilcane, Özbəkistanın Milli Mühasiblər və Auditorlar Assosiasiyası Şurasının sədri Minovar Tulaxodjaeva, Litva Auditorlar Palatasının sabiq prezidenti İngrida Puriene, Özbəkistanın Auditorlar Palatası Şurasının sədri Nemətulla Kərimov, Gürcüstanın Auditorlar, Mühasiblər və

Maliyyə Menecerləri Federasiyasının icraçı direktoru Yuri Papaskua, Rusiya Federasiyasının Uzaq Şərqin İnkişafı Nazirliyinin Hüquqi Təminat və Nəzarət Departamentinin direktoru Dmitriy Yakovenko və Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyasının sədri Jorjeta Kovaliov-Rusu təbrik nitqləri ilə çıxış ediblər.

Tədbir çərçivəsində Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) prezidenti Asma Resmouki Azərbaycan dövlətinin hər zamanda auditorların yanında olduğunu, onları dəstəklədiyini və bunun nəticəsində ölkədə peşəkar auditorlar komandasının formalaşdığını xüsusi vurğulayıb. Xanım Asma Resmouki hesab edir ki, bu məsələdə Azərbaycan digər ölkələr üçün nümunə ola bilər.

Konfransda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov salamlama nitqindən sonra Hesablama Palatasının dövlət sektorunda hesabatlılıq və şəffaflığın artırılması istiqamətində gördüyü işlərdən və dövlət auditinin töhfəsindən bəhs edib, həmçinin audit institutunun inkişafına təsir edən məqamlara və çağırışlara toxunub.

Daha sonra sədr ali audit orqanlarının, o cümlədən Hesablama Palatasının yaşıl dünya naminə gördüyü əsas işlərdən və bunun hesabatlılığa təsirindən danışıb.

Konfrans zamanı Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov “Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində mühasibatlıq və auditin transformasiya istiqamətləri”, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov “İqlim fəaliyyətinin qiymətləndirilməsinə ali audit orqanlarının cəlb edilməsi: reallıqlar və çağırışlar” Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) prezidenti Asma Resmouki “Dayanıqlı inkişafın təminatı üzrə inkişaf etməkdə olan xidmətlər bazarı”, Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) prezidenti Salvador Marin “Kiçik və Orta Ölçülü Mühasibatlıq Təşkilatlarının Yeni Davamlı İnkişaf Öhdəlikləri - Avropa Davamlı İnkişaf Hesabatlığı Standartları (ESRS) və digər müvafiq qaydalarla əlaqədar rolu”, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Fərrux Rəhman “Dayanıqlı inkişaf sahəsində məlumatların açıqlanması üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiq edilməsinə aparan yol”, “Deloitte &Touche” məhdud məsuliyyətli cəmiyyətinin direktoru Nuran Kərimov “Audit yaşıl iqtisadiyyatın mühüm amili kimi”, Rusiya Federasiyası “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə heyətinin sədri İqor Kozırev “Dayanıqlı inkişaf barədə hesabatlılıq: keçmiş təcrübə və gələcəyə baxış”, Özbəkistanın Milli Mühasiblər və Auditorlar Assosiasiyası Şurasının sədri Minovar Tulaxodjaeva “Ekoloji audit: dünya və Özbəkistan təcrübəsi”, Latviya Sertifikatlı Auditorlar Assosiasiyasının İdarə heyətinin üzvü, Təhsil komitəsinin sədri Kiril Kondratovs “Avropa İttifaqında davamlılıq hesabatı və audit üçün hüquqi baza”, “KPMG Audit Azerbaijan” MMC-

nin Audit üzrə direktoru Mələk Abbaslı “Davamlı inkişafın təşviqində kənar auditorların rolu”, Litva Auditorlar Palatasının sabiq prezidenti Ingrida Puriene “Dayanıqlı inkişaf sahəsində xidmətlər: Litvada başlanğıc”, Rusiya Federasiyasının Uzaq Şərqin İnkişafı Nazirliyinin Hüquqi Təminat və Nəzarət Departamentinin direktoru Dmitriy Yakovenko “Rusiyada davamlı inkişaf konsepsiyasının reallaşdırılması: "Yaşıl" iqtisadiyyat və onun verifikasiyası”, Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyasının sədri Jorjeta Kovaliov Rusu “Yığmaq və ya xərcləmək: yaşıl iqtisadiyyatda pul”, Qazaxıstan Respublikasının «УЧЕТ» Peşəkar Mühasibatlıq Qurumunun prezidenti Maksim Barışev “Gələcəyin uçotu: ekoloji təmiz biznes üçün İT həllər”, Gürcüstan Mühasiblər Birliyinin Baş direktoru Tata Beridze “Peşəkar universallıq – yaşıl iqtisadiyyat şəraitində mühasiblər və auditorlar üçün əsas çağırışlardan biri kimi”, Rusiya Federasiyası “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə heyəti sədrinin müavini Nadejda Kobozeva “Yaşıl iqtisadiyyat: dayanıqlı inkişafın təmin edilməsində auditin rolu”, Özbəkistan Respublikasının Fərqanə vilayəti Auditorlar Palatasının sədr müavini Ahmet Kurbanov “Özbəkistanda auditor fəaliyyətində islahatların aparılması”, Voronej Dövlət Universitetinin İqtisadiyyat və Müqavilə Xidməti üzrə prorektoru, İqtisadi təhlil və audit kafedrasının müdiri Larisa Korobeynikova “Dövlət yaşıl satınalmaların həyata keçirilməsi üçün ekoloji meyarlardan istifadə”, Voronej Dövlət Universitetinin İqtisadi təhlil və audit kafedrasının dosenti Panina İrina “ESG hesabatlığı üzrə auditor hesabatının strukturu” mövzusunda məruzələrlə çıxış ediblər.

Beynəlxalq elmi-praktik konfrans çərçivəsində İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) və Auditorlar Palatası arasında Anlaşma Memorandumu imzalanıb.

Konfransın yekununda Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul edilmişdir.

III. DƏYİRMİ MASALAR

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının “Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların hazırlanması barədə” 2024-cü il 13 may tarixli 365/2 nömrəli qərarının icrası ilə əlaqədar Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.4-cü “Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların hazırlanması” bəndinə və Auditorlar Palatası sədrinin 2024-cü il 16 yanvar tarixli 1/3 nömrəli “Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların hazırlanması barədə” Sərəncamına

uyğun olaraq, 2024-cü ilin 07 iyun tarixində “Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların hazırlanması barədə” “Dəyirmi masa” keçirilmişdir. Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2024-ci ilin 27 may tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2024-ci il 07 iyun tarixli 01 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – F.Kamalova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 07 iyun tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 20 nəfər şəxs (Qəşəm Bayramov – Auditorlar Palatası Aparatının və “Dəyirmi masa”nın rəhbəri, Nəcəf Talıbov – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Auditorlar Palatasının Şurası yanında Elm, innovasiyaların tətbiqi və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri, "TNM Audit" MMC-nin direktor-auditoru, Qoşqar Əhmədov – Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi, Elnur İbrahimov– Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi, Fəqan Qarayev – Palata sədrinin müşaviri, Zaur Almazov – Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri, Fatma Kamalova – Aparat rəhbərinin müavini, “Dəyirmi masa”nın katibi, Səftər Vəlizdə - Auditorlar Palatasının Şurası yanında Beynəlxalq Audit Standartları üzrə komitənin sədr müavini, “SR Audit Solutions” MMC-nin direktor-auditoru, Anar Bayramov – “İnvest Finance” MMC-nin direktor-auditoru, Elçin Əliyev – “BKR Consulting” MMC-nin direktor-auditoru, Eldar Təhməzov – “Azəruçot” MMC-nin direktor-auditoru, Yasin Şirinov - “Azəri Audit Servis” MMC-nin auditoru, Elxan İsmayılov – “ELVİ Audit” MMC-nin direktor-auditoru, Elzadə Süleymanova – “Azel - Audit” MMC-nin direktoru, Faiq Avşar–“RF Tax consulting 2015” MMC-nin direktor-auditoru, Ənvər Aslanov – Sərbəst auditor, İlham Süleyman – Sərbəst auditor, Nazim Axundov – Sərbəst auditor, Vidadi Talıbov – Sərbəst auditor, Zamin Hüseynov –“ABAK-Az Crovve LTD”-nin direktoru) iştirak etmişdir. 10 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir (Anar Bayramov - “Bizcon Audit” MMC-nin direktor-auditoru, Azər Əliyev - Sərbəst auditor, Elnur Kazımov - “Azfinance and consulting” MMC-nin direktor-auditoru, Namiq Abbaslı - Auditorlar Palatasının Şurası yanında Beynəlxalq Audit Standartları üzrə komitənin sədri, “ANR Audit” MMC-nin direktor-auditoru, Nəsibə Muradxanova - “KPMG Audit Azərbaycan” MMC-nin Audit departamentinin rəhbəri, auditor, Roman Hüseynov - Naxçıvan Muxtar Respublikası Auditor təşkilatının direktor-auditoru, Rüfət Əliyev - “A Audit and Consulting” MMC-nin direktor-auditoru, Tural Ağayev - “PraysVoterhauskupers Audit Azərbaycan” MMC-nin Baş meneceri,

Ziya Mikayılov - “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialının Audit şöbəsinin menecer, Elxan Əliyev - “Deloitte &Touche” MMAC-nin Audit departamentinin direktoru).

IV.SEMİNARLAR

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.2-cı “Auditin aktual problemləri üzrə konfransların, “dəyirmi masa”ların, ustad dərslərinin və seminarların təşkili” və Auditorlar Palata Şurasının 2023-ci il 28 dekabr tarixli 362/1 nömrəli qərarı ilə təsdiq edilmiş « Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı”nın 9.2.1-ci “Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklər” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov), 9.2.2-ci “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov, Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) və “Dövlət satınalmaları haqqında qanunvericilikdə dəyişikliklər” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov, Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndlərində nəzərdə tutulmuş mövzular üzrə 2024-cü ilin 17 yanvar tarixində seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-cü ilin 12 yanvar tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatanın üzvləri olan 96 nəfər auditor təşkilatlarının nümayəndələri və sərbəst auditorlar iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 17 yanvar tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

2. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı”nın 9.2.6-cı “Vergi məcəlləsinin və Maliyyə Hesabatlarının praktiki tətbiqi üzrə seminarın keçirilməsi” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov, Sərbəst auditor –Şamxal Kərimov, “Bizcon Audit” MMC-nin direktor-auditoru Anar Bayramov), 9.2.7-ci “Auditorlar Palatası tərəfindən aşkar edilmiş (ölkə, sahəvi və institusional) cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə zəifliklərə və təhdidlərə dair seminarın keçilməsi” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) və 9.2.8-ci “Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin müqabilində öhdəlik daşıyan şəxslərin, auditor xidməti göstərən şəxslərin, dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin geriyə məlumatlandırılmasına dair Qaydalar” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) barədə seminarın keçirilməsi” bəndlərində nəzərdə tutulmuş mövzular və “Beynəlxalq Audit Standartlarında və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarında edilmiş son dəyişikliklər (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) mövzusunda 2024-cü ilin 15 fevral tarixində seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-cü ilin 09 fevral tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatanın üzvləri olan 58 nəfər auditor təşkilatlarının nümayəndələri və sərbəst auditorlar iştirak etmişdir

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 15 fevral tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

3. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı”nın 9.2.11-ci “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsait” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndində nəzərdə tutulmuş mövzu üzrə və “Öhdəlik daşıyan

şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər” barədə (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) mövzusunda 2024-cü ilin 05 mart tarixində seminarlar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-ci ilin 01 mart tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 69 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 05 mart tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

4. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı”nın 9.2.10-cu “Virtual aktivlərin istifadəsi ilə bağlı ƏL/TMM təhlükələri də daxil olmaqla, yeni ödəniş üsulları və texnologiyalarından sui-istifadə hallarının araşdırılması və təqibinə dair seminarın keçirilməsi” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) və 9.2.12-ci “Maliyyə vəsaitlərinin elektron köçürülməsi zamanı müştəri uyğunluğu tədbirlərinin tətbiq edilməsi Qaydası barədə seminarın keçirilməsi” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) bəndlərində nəzərdə tutulmuş mövzular üzrə 2024-cü ilin 15 mart tarixində seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-cü ilin 11 mart tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 75 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 15 mart tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

5. Auditorlar Palatasında 2024-cü ilin 01 aprel tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 28 dekabr tarixli 362/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət proqramının qurulmasına və tətbiqinə dair Metodik Göstəriş, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən göndərilmiş Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində araşdırılmış işlərin nəticələrinə dair hazırlanmış tipologiyalara uyğun olaraq "Hüquqi şəxslər ilə fiziki şəxslər arasında notarial qaydada bağlanmış borc (və ya tapşırıq) müqavilələri əsasında hüquqi şəxslərə məxsus vəsaitlərin nağdlaşdırılması" və "Satınalmalar üzrə dövlət vəsaitlərinin qanunsuz üstünlük ilə əldə edilərək əvvəlcədən əlbir olan qrup tərəfindən nağdlaşdırılması və leqallaşdırılması" (moderator və məruzəçi – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) mövzularında seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-cü ilin 19 mart tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 90 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 01 mart tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

6. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.13-cü "Auditor xidməti zamanı yol verilən tipik (səciyyəvi) səhvlər və onların fəsadları (neqativ nəticələri) barədə seminarın keçirilməsi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) və 9.2.14-cü "Fasiləsiz (davamlı) audit. Dövrilikdən davamlılığa keçid - beynəlxalq təcrübə mövzusunda seminarın keçirilməsi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndlərində nəzərdə tutulmuş mövzular üzrə 2024-cü ilin 15 aprel tarixində seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-ci ilin 05 aprel tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 82 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 15 aprel tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

7. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.15-ci "Korporativ saxtakarlığı və dələduzluğu aşkar etmək bacarığının gücləndirilməsi mövzusunda seminarın keçirilməsi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Sərbəst auditor Altay Cəfərov) və 9.2.16-cı "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar barədə seminarın keçirilməsi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) bəndlərində nəzərdə tutulmuş mövzular üzrə 2024-cü ilin 25 aprel tarixində seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-cü ilin 22 aprel tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 74 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 25 aprel tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

8. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.17-ci "Bələdiyyələrin auditi zamanı innovativ təhlil metodlarının tətbiqi barədə seminarın keçirilməsi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik

məsələlər üzrə müşaviri Nəcəf Talıbov), 9.2.18-ci “Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi Qaydası” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) bəndlərində və Auditorlar Palatasının IFAC qarşısında öhdəlik tələblərinə əsasən “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi-də (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilən dəyişikliklərlə bağlı ictimai əhəmiyyətli qurumların auditinə tətbiq edilən qadağaların xülasəsi” barədə (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndlərində nəzərdə tutulmuş mövzular üzrə 2024-cü ilin 22 may tarixində seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-cü ilin 17 may tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 85 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 22 may tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

9. Auditorlar Palatası Şurasının “Sosial auditə dair metodik vəsait” barədə 2024-cü il 09 aprel tarixli 364/6 nömrəli Qərarının 3-cü bəndinin icrasını təmin etmək məqsədilə 2024-cü ilin 21 iyun tarixində tarixində “Sosial auditə dair metodik vəsait” (moderator – Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, məruzəçi –“Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialının nümayəndəsi Fikrət Hüseynov) mövzularında seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2024-cü ilin 18 iyun tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 77 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 21 iyun tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

10. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.19-cu "Hüquqi şəxslərin və hüquqi təsisatların benefisiar mülkiyyətçilərinin müəyyən edilməsinə dair metodologiya" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov, Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) və 9.2.20-ci "Müştəri profili üzrə risk dərəcəsinə müvafiq olaraq irihəcmli hesab edilə bilən nağd əməliyyatların araşdırılması Metodologiyası" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) bəndlərində nəzərdə tutulmuş mövzular üzrə 2024-cü ilin 25 iyun tarixində seminar keçirildi.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2024-cü ilin 20 iyun tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlarda mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 92 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 25 iyun tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

11. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.21-ci "FATF-ın 22 və 23-cü Tövsiyələrindən mühasibatlıq və auditor xidmətləri göstərən şəxslərin qanunsuz yollarla əldə edilmiş ƏL/TM-ə qarşı mübarizə sahəsində müvafiq standartlara və tələblərə uyğun olmalarının təmin edilməsi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Auditin

hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov) bəndində nəzərdə tutulmuş mövzu üzrə 2024-cü ilin 08 iyul tarixində seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2024-cü ilin 01 iyul tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 81 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 08 iyul tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

12. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.23-cü "Strateji audit barədə" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndində nəzərdə tutulmuş mövzu üzrə 2024-cü ilin 18 iyul tarixində seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2024-cü ilin 12 iyul tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 70 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 18 iyul tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

13. Auditorlar Palatasında 2024-cü ilin 31 iyul tarixində Auditorlar Palatasında "600 saylı (düzəliş edilmiş) "Xüsusi mülahizələr qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" BAS-ın tətbiqi (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi - Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) mövzusunda seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2024-cü ilin 26 iyul tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 76 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 31 iyul tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

14. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.26-cı "Auditdə informasiya texnologiyalarının tətbiqi" (moderator – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov; məruzəçi –Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndində nəzərdə tutulmuş mövzu üzrə 2024-cü ilin 03 oktyabr tarixində seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2024-cü ilin 30 avqust tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 81 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 03 oktyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

15. Auditorlar Palatasında 2024-cü ilin 17 oktyabr tarixində "Auditorların audit zamanı aşkar etdiyi nöqsanların əsaslandırılması və auditor xidmətinin istifadəçilərinin auditdən gözləntilərinin artırılması" (Moderator - Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) mövzusunda seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2024-cü ilin 14 oktyabr tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın

rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 100 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 17 oktyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

16. Auditorlar Palatasında 2024-cü ilin 30 oktyabr tarixində "Koorporativ saxtakarlığın və dələduzluğun aşkar edilməsi sahəsində auditorların bacarıqlarının artırılması" (Moderator-Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov; məruzəçilər – "SR AUDİT SOLUTİONS" MMC-nin direktoru Səftər Vəlizadə və "ANR Audit" MMC-nin direktoru Namiq Abbaslı) mövzusunda seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2024-cü ilin 28 oktyabr tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 76 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 30 oktyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

IV. "USTAD DƏRSLƏRİ"

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.2-cı "Auditin aktual problemləri üzrə konfransların, "dəyirmi masa"ların, ustad dərslərinin və seminarların təşkili" və Auditorlar Palatası Şurasının 2023-cü il 28 dekabr tarixli 362/1 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.9-cu "Auditin sənədləşdirilməsi üzrə ustad dərsinin keçirilməsi"

(moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, "EKOL AUDIT" MMC-nin auditoru İslam Bayramov**)** bəndlərində nəzərdə tutulmuş mövzu üzrə 2024-cü ilin 29 fevral tarixində "ustad dərsi" keçirilmişdir.

Həmin ustad dərsinin keçirilməsi ilə əlaqədar 2024-cü ilin 23 fevral tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Ustad dərsində mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Ustad dərslərində Auditorlar Palatasının üzvləri olan 94 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Ustad dərslərinin nəticəsinə dair hazırlanmış məlumat 2024-cü ilin 29 fevral tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

2. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.22-ci "Publik hüquqi şəxslərdə MHA-nin xüsusiyyətləri" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi –"KPMG Audit Azərbaycan" MMC-nin Audit departamentinin partnyoru-auditor Nəsibə Muradxanova) bəndində nəzərdə tutulmuş mövzular üzrə 2024-cü ilin 08 iyul tarixində "ustad dərsi" keçirilmişdir.

Həmin ustad dərsinin keçirilməsi ilə əlaqədar 2024-cü ilin 01 iyul tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Ustad dərsində mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Ustad dərsində Auditorlar Palatasının üzvləri olan 81 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Ustad dərsinin nəticəsinə dair hazırlanmış məlumat 08 iyul tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

3. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.25-ci "Əlaqəli auditor xidmətlərinin aparılması zamanı BAS-ların tətbiqi" (moderator – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov; məruzəçi –Auditorlar Palatası

sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndində nəzərdə tutulmuş mövzu üzrə 2024-cü ilin 03 oktyabr tarixində "ustad dərsi" keçirilmişdir.

Həmin ustad dərsinin keçirilməsi ilə əlaqədar 2024-cü ilin 30 avqust tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Ustad dərsində mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Ustad dərsində Auditorlar Palatasının üzvləri olan 81 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Ustad dərsinin nəticəsinə dair hazırlanmış məlumat 03 oktyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

4. Auditorlar Palatasının 2024-cü il üzrə İş Planı"nın 9.2.27-ci "Qeyri-maliyyə hesabatlarının auditi və sosial auditin aparılması" (Moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi –Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) bəndində nəzərdə tutulmuş mövzu üzrə 2024-cü ilin 05 noyabr tarixində "ustad dərsi" keçirilmişdir.

Həmin ustad dərsinin keçirilməsi ilə əlaqədar 2024-cü ilin 01 noyabr tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Ustad dərsində mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Ustad dərsində Auditorlar Palatasının üzvləri olan 86 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar, Palatanın əməkdaşları iştirak etmişdir.

Ustad dərsinin nəticəsinə dair hazırlanmış məlumat 05 noyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

“AUDİTORUN SƏSİ” MÖVZUSUNDA KEÇİRİLƏN MÜZAKİRƏLƏR

1. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 10.7-ci “Auditorun səsi” mövzusunda onlayn müzakirənin təşkili” bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2024-cü ilin 17 aprel tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının nümayəndələrinin, sərbəst auditorların, struktur bölmələrinin rəhbərlərinin, Auditorlar Palatası Şurasının və Palatanın Şurası yanında komitələrin və komissiyanın üzvlərinin iştirakı ilə “Auditorun səsi” mövzusunda onlayn müzakirə keçirilib.

Həmin onlayn müzakirənin keçirilməsi ilə əlaqədar 2024-ci ilin 01 aprel tarixində auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. Onlayn müzakirənin nəticəsi 2024-ci il 17 aprel tarixli 01 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – F.Kamalova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 17 aprel tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

Tədbirdə Palatanın üzvləri və əməkdaşlarından ibarət 83 nəfər iştirak edib.

Müzakirə zamanı verilən təkliflərin nəzərə alınması və reallaşdırılması məqsədilə Palata sədrinin 2024-cü ilin 29 aprel tarixli 1/16 saylı sərəncamı ilə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması və mövcud problemlərin həll edilməsi üçün Palatanın aidiyyatı struktur bölmələrinə müvafiq tapşırıqlar verilmişdir.

2. Auditorlar Palatasında 2024-cü ilin 26 noyabr tarixində Palatanın üzvləri olan auditor təşkilatlarının nümayəndələrinin, sərbəst auditorların, struktur bölmələrinin rəhbərlərinin, Auditorlar Palatası Şurasının və Palatanın Şurası yanında komitələrin və komissiyanın üzvlərinin iştirakı ilə “Auditorun səsi” mövzusunda onlayn müzakirə keçirilib.

Həmin onlayn müzakirənin keçirilməsi ilə əlaqədar 2024-ci ilin 26 oktyabr tarixində auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. Onlayn müzakirənin nəticəsi 2024-ci il 28 noyabr tarixli 02 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – F.Kamalova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 26 noyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

Tədbirdə Palatanın üzvləri və əməkdaşlarından ibarət 78 nəfər iştirak edib.

Müzakirə zamanı verilən təkliflərin nəzərə alınması və reallaşdırılması məqsədilə Palata sədrinin 2024-cü ilin 6 dekabr tarixli 10-1/3-3-14/2024 saylı sərəncamı ilə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması və mövcud problemlərin həll edilməsi üçün Palatanın

aidiyyatı struktur bölmələrinə müvafiq tapşırıqlar verilmişdir. Həmin sərəncamın icrası davam etdirilir.

2024-CÜ İL ÜZRƏ AUDİTORLAR PALATASININ TƏŞKİL ETDİYİ "DƏYİRMİ MASA", SEMİNAR , USTAD DƏRSLƏRİNDƏ VƏ "AUDİTORUN SƏSİ" MÖVZUSUNDA MÜZAKİRƏLƏRDƏ PALATA ÜZVLƏRİNİN İŞTİRAKININ MONİTORİNQİ

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 8.7-ci "Palatada fəaliyyət göstərən "Dəyirmi masa", təşkil olunan seminar, konfrans və s. tədbirlərdə Palatanın üzvlərinin iştirakının monitorinqi" bəndinə və Palata sədrinin 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli "Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə" Sərəncamının 5-ci bəndinə uyğun olaraq Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən 2024-cü il ərzində Palata üzvlərinə peşə fəaliyyətlərində dəstək göstərilməsi məqsədilə Auditorlar Palatasının təşkil etdiyi "dəyirmi masa"lar, seminar, ustad dərslərində və "Auditorun səsi" mövzusunda müzakirələrdə mütəmadi olaraq Palata üzvlərinin iştirakının monitorinqi aparılmışdır.

Monitorinqin nəticələrinə əsasən 2024-cü il ərzində 29 mövzu üzrə 16 seminar, 14 ictimai-siyasi tədbir, 1 beynəlxalq elmi-praktik konfrans, 1 "Dəyirmi masa", 4 ustad dərsi və "Auditorun səsi" mövzusunda 2 müzakirə keçirilmişdir.

Aparılmış monitorinqin nəticəsinə əsasən 2 auditor təşkilatı ("TNM AUDİT" MMC və "JELF AUDİT GROUP" MMC) keçirilmiş seminar və ustad dərslərinin hər birində iştirak etmişdir.

Eyni zamanda keçirilmiş tədbirlərin 60%-dən çoxunda 38 auditor təşkilatı (25%) və 14 sərbəst auditor (22%) iştirak etmişdir (1 və 3 saylı siyahı əlavə olunur).

Qeyd etmək istərdim ki, 90 auditor təşkilatı (58%) və 39 sərbəst auditor (60%) isə keçirilmiş tədbirlərin 30%-dən azında iştirak etmişdir (2 və 4 saylı siyahı əlavə olunur).

Təəssüflər olsun ki, ümumilikdə 43 auditor təşkilatı (27%) və 24 sərbəst auditor (37%) keçirilmiş tədbirlərin heç birində iştirak etməmişdir (5 saylı siyahı əlavə olunur).

Mənfi haldır ki, 2023-ci il ilə müqayisədə 2024-cü ildə Palata tərəfindən keçirilmiş tədbirlərdə iştirak etməyən üzvlərin sayı auditor təşkilatları üzrə 39-dan 43-ə, sərbəst auditorlar üzrə isə 23-dən 24-ə qalxmışdır. Tam iştirak edən üzvlərin sayı auditor təşkilatları üzrə 11-dən 2-ə enmiş, sərbəst auditorlar üzrə isə ümumiyyətlə olmamışdır.

Məlumat üçün bildirirəm ki, mütəmadi olaraq tədbirlərdə iştirak etməyən üzvlər tədris olunan mövzulardan məlumatsız olduqları üçün xidmət göstərən zaman bilik və peşəkarlıq səviyyələrinin aşağı olması səbəbi ilə risk daşıyıcıları olurlar.

Qeyd olunmalıdır ki, Auditorlar Palatasının təşkil etdiyi "dəyirmi masa"lar, seminar və ustad dərslərinin keçirilməsi Palata üzvlərinə peşə fəaliyyətlərində dəstək göstərilməsi məqsədi daşıyır və auditorların bilik və peşəkarlıq səviyyəsinin artırılmasına xidmət edir.

TƏKLİF VƏ TÖVSİYƏLƏR

1. Auditorlar Palatasında 2024-cü il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri Palata üzvləri tərəfindən yüksək qiymətləndirilmiş və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə aparılmış monitorinqin nəticəsi sübut edir ki, Auditorlar Palatası 2025-ci ildə də bu sahədə aparılan işlərini davam etdirsin;

2. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə olunsun ki, Palatada 2025-ci il ərzində təşkil olunacaq "dəyirmi masa"lar da, keçiriləcək ictimai-siyasi tədbirlərdə, konfranslarda, seminarlarda, ustad dərslərində və s. tədbirlərdə fəal iştirak etsinlər;

3. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə olunsun ki, Auditorlar Palatasında 2025-ci ildə keçiriləcək tədbirlərə dair öz təkliflərini təqdim etsinlər;

4. Auditorlar Palatasının məsul icraçılarına tapşırılsın ki, Auditorlar Palatasında nəzərdə tutulan tədbirlərin vaxtında və yüksək keyfiyyətlə keçirilməsini və nəticəsi barədə məlumatların Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilməsini, zəruri hallarda KİV-də işıqlandırılmasını təmin etsinlər.